

*Bayraq hər bir xalqın müstəqillik, suverenlik, milli-azadlıq, istiqlal ideallarını simvolizə edir. Azərbaycan Respublikasının müstəqil, suveren dövlət kimi mövcudluğunu dövlətçilik rəmzlərindən biri olan dövlət bayrağı bütün dünyaya göstərir. Zəngin tarixi irsdən yaranaraq uğrunda on minlərlə insanın canından keçdiyi üçrəngli bayrağımız tarixi yolumuzun, milli ideologiyamızın təməl prinsiplərini tam mənası ilə ifadə edir. Hər il xalqımız 9 Noyabr - Dövlət Bayrağı Gününü xüsusi təntənə ilə, bütün sahələrdə əldə olunan nailiyyətlərlə qarşılayır. Əzəmətlə dalğalanan üçrəngli bayrağımız yaddaşlarda təzələnir. Azərbaycan Respublikasının Dövlət Bayrağı 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin iclasında qəbul edilmiş və 1920-ci ilin aprel ayınadək dövlət statusuna malik olmuşdur.*

# Üçrəngli bayrağımız daim zirvələrdə dalğalanır

Azərbaycan Respublikasının dövlətçilik rəmzləri sırasında yer alan Dövlət Bayrağı siyasi-ideoloji və mənəvi baxımdan əhəmiyyətlidir. Yaşıl, qırmızı, göy rənglərdən, ağ aypara və səkkizguşəli ulduzdan ibarət üçrəngli bayraq Azərbaycan dövlətinin suverenliyinin rəmzidir. Hər bir rəng Azərbaycan xalqına məxsus dəyərləri özündə ehtiva edir. Azərbaycan Respublikasının dövlət bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Mavi rəng - Azərbaycan xalqının türk mənşəli olmasını bildirir, mavi rəng türkçülük ideyası ilə bağlıdır. Türklərin göy rəngə üstünlük verməsi ilə bağlı müxtəlif izahlar da mövcuddur. Orta əsrlərdə islam dinində olan türkdilli xalqların yaşadığı ərazilərdə saysız-hesabsız qədim abidələr də tikilib və bu abidələrin əksəriyyəti göy rəngdə olub. Bu baxımdan göy rəng, həm də simvolik məna daşıyır. Göy rəng XIII əsrdə Elxanilər dövrünün əzəmətini, onların zəfər yürüşlərini əks etdirirdi. Qırmızı rəng - müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək, bir sözlə müasirləşməni, inkişafa istəyi, yaşıl rəng - İslam sivilizasiyasına, İslam dininə mənsubluğu ifadə edir. "Ay-ulduz"un mənası - Bayrağın üzərindəki aypara türk xalqlarının simvoludur.

Dövlət bayrağının Azərbaycan vətəndaşlarının milli həmrəyliyinin, vahid məfkurə ətrafında sıx birləşmələrinin başlıca amillərindən biri olduğunu nəzərə alaraq və onun təbliğinin daim diqqət mərkəzində saxlanılmasını təmin etmək məqsədilə Bakı şəhərində, Xəzərin sahilində Dövlət Bayrağı Meydanının yaradılması da Prezident İlham Əliyevin dövlət atributlarına olan yüksək ehtiramının ən gözəl nümunəsidir. Prezident İlham Əliyev 17 noyabr 2007-ci ildə Bakıda Dövlət Bayrağı Meydanının yaradılması ilə bağlı sərəncam imzalamaqla sınanmış ideyaları reallaşdırdı, bayrağımıza ümumxalq ehtiramını, məhəbbətini artırdı. Varlığımızı təsdiqləyən bayrağımızla bağlı bu tarixlərin il fərqi olsa da, eyni aya təsadüf etməsi Ulu Öndərin ideyalarına sadiqlik ifadəsi oldu. Üçrəngli bayrağımız müstəqilliyimizin rəmzi kimi BMT-nin, Avropa Şurasının, ölkəmizi başqa dövlətlərdə təmsil edən səfirliklərimizin qarşısında əzəmətlə ucalır. Şərəfimiz, müstəqilliyimizin əbədi qarantı olan bayrağımızın dalğalanması da əsrlər boyu xalqımızın azadlığının, müstəqil siyasətimizin, suverenliyimizin, bütün xalqlarla bərabər yaşamaq hüququmuzun ifadəsi, arzuların reallaşması oldu.

Tarixdə adını yaşadan sərkərdələrin düşmən üzərində qələbəsinin zəfər müjdəçisi, "tuğ" adlandırılan bayrağımız alınmaz qala kimi toxunulmaz sayılmış, ucadan-uca hesab edilmişdir. Elə buna görə də daim başımızın üstündə saxladığımız bayrağımız sevincimizin ilk şahidi, qələbə müjdəçisi sayılır. Bu müqəddəsliyi təsdiqləyən amillərdən biri də dövlət başçılarının səmavi kitablarla birgə bayraq qarşısında and içib xalqına, Vətənə sadiq qalacaqlarına söz verməsidir. Elə bir dövlət himni yoxdur ki, orada həmin ölkənin bayrağının adı çəkilməsin. Azərbaycanın Dövlət Himnində də ölkə vətəndaşlarına üçrəngli bayrağımızla məsud yaşamaq, xalqımıza daim ucalmaq amalı arzulanır. Vətən uğrunda ölməyi, onun müqəddəsliyinin qorunmasını şərəf işi hesab edən ulu öndər Heydər Əliyev üçün dövlət bayrağı milli azadlığa, milli oyanışa, milli ruhun canlanmasına bələdçi, çağırış idi.

Bayrağımızın müqəddəsliyini Azərbaycandan uzaqlarda belə, qorumaqla gəncliyə nümunə göstərən, dövlət atributumuzun toxunulmazlığını hər bir vətəndaşın şərəf işi olduğunu bildirən, Azərbaycan bayrağını təhqir edən erməni şovinistinə layiq olduğu dərsi verməklə hərbçi şərəfini və dövlətçiliyimizin müqəddəsliyini, toxunulmazlığını qoruyan Ramil Səfərovun bu hərəkəti bayrağımıza sədaqətin məntiqi ifadəsi oldu. Ramilin Azərbaycana dönüşünü, azadlığa buraxılmasını Prezident İlham Əliyevin bir dövlət başçısı, zabitinin şərəfini qoruyan Ali Baş Komandan kimi qətiyyətinin təntənəsi, haqq-ədalətin qələbə simvolu adlandıran xalqımız sevincini bayrağımızı əbədi uğurlarımızın şahidi kimi dalğalandırmaqla bildirdi. Ulu öndər Heydər Əliyev Azərbaycan Respublikasının bayrağını Azərbaycan dövlətinin müstəqilliyini təcəssüm etdirən müqəddəs rəmzlərdən biri kimi dəyərləndirirdi: "Vətəndaşlarımıza, xüsusən, gənclərimizə dövlət atributlarına dərin ehtiram hisslərinin aşılanması cəmiyyətdə vətənpərvərlik ruhunun möhkəmləndirilməsi işinə, bilavasitə xidmət edir. Dövlət atributlarının mahiyyətinin və əhəmiyyətinin əhali arasında geniş təbliğ olunması, gənc nəslin Azərbaycanın bayrağına, gerbinə və himninə hörmət ruhunda tərbiyə edilməsi vətəndaş cəmiyyətinin yaradılmasının mühüm amillərindən biridir".

**Əli SADIQOV,**
**"Respublika".**